# Bu vəfasız dünyanın bir Məmmədi var idi...

**Bir payız günündə bu yurdun adını dillər əzbəri edən şahbuzlu ölməz şair Məmməd Araz poeziyasının ətrini, nurunu oxucularımıza çatdırmaq istəyirəm. Bir ömürdən qalanların izinə düşüb unudulmayan xatirələri çözələyib bir el oğlunun, el şairinin ruhunu təzələmək arzusundayam.**

**Sən göydən ummadın günəşli günü,**
**Yazdın öz bəxtini öz əllərinlə.**
**Həyatın hər ağır məşəqqətini,**
**Əzdin çəkicinlə, yudun tərinlə.**

1933-cü ilin 14 oktyabrında-durna qatarının öz köçünü asta-asta çəkib getdiyi bir payız günündə yurdumuzda bir oğul doğuldu...

Dünyaya göz açdığı evdə çıraq işığına bələnmiş palçıq suvaqlı dörd divar və əli qabarlı ata-ananın isti nəfəsi, iki qardaşının uşaq şıltaqlığı var idi. Onda hələ bu ev də, ata-ana da, bacı-qardaş da qəlbi həyat eşqilə döyünən bu körpənin gələcəkdə böyük şair olacağından xəbərsizdilər. Elə yaşadığı, böyüyüb boya-başa çatdığı Nursu kəndinin də, onun sakinlərinin də Azərbaycanın ən böyük şairinin cılız, zəif bədənli bu Məmməd olacağından xəbəri yoxdur.

Hamı kimi, adilərdən fərqlənməyən Məmməd çopurlu qayalarda, çiçəkli yamaclarda, yamyaşıl çəmənlərdə hələ körpəikən qoyun-quzu arxasınca qaça-qaça, yıxıla-dura böyüyüb boya-başa çatdı. Bir keçən gün onu yaşıdlarından fərqlənməyə, ayırmağa fərman verirdi sanki. Onun keçdiyi ömür yolunun uşaqlıq aylarına, illərinə şahid olan bacısı Məryəmin xatirələrindən:

"Çayda-çaylaqda qoyun-quzu otaran Məmmədin qoltuğundan dəftər, əlindən qələm əskik olmazdı. Ondan balaca olduğumdan onunla hərlənərdim və tez-tez yazı yazdığını görüb soruşardım ki, nə yazırsan? Cavabı isə bu olardı ki, heç. Ən çox çay kənarında, dağ yamacında oturub fikrə gedən Məmmədin gözləri həmişə yollara dikilərdi. Elə bil ki, nəisə gözləyirdi.

Mənsə hərdən gizlicə onun cızma-qara etdiyi dəftərləri vərəqləyərdim. Amma bir şey anlamazdım. Şeir olduğunu nə bilirdim? Bəzən onun xəttini oxuya bilmədiyimdən nə yazdığını da oxuya bilməzdim. Beləcə, ağlı-qaralı, gecəli-gündüzlü illər onu yetkinlik yaşına çatdırdı. Yenədə həmişə onu əlində dəftər-kitabla görürdüm... Məmməd atamın razılığı ilə ali məktəbdə oxumaq üçün Bakıya getdi  və beləcə, bu gedişlə Məmmədin sanki şairlik ömrü başlandı.... Yadımda qalan isə onun yoxluğuna alışa bilməyən anamın ürək parçalayan göz yaşlarıdır. Məmməd yadına düşəndə anam onun gəzdiyi yerləri gəzər və sanki Məmmədin qoxusunu o yerlərdən alardı. O, bilirdi ki, Məmməd Nursu dağlarının çəninə-çiskininə, gülünəçiçəyinə, daşına-torpağına, selinə-suyuna vurğundu. Bəlkə də onu şair eyləyən elə o vurğunluq... Nursunun bənzərsiz təbiəti, əsrarəngiz dağı-dərəsi idi.

Dünya Varlıq Yoxluq  Zaman-zaman şairlər bu iki həyat həqiqəti arasında ilham atını səyirtmişlər. Şairlərin demək olar ki, hamısı son ucu ölümlü dünyanın vəfasızlığını, ötəriliyini adi insanlardan daha erkən duyub, dərk etmişlər. Bu dünən də belə idi, bu gün də belədir. Bəlkə sabah da belə olacaq. Onlar elə bu vəfasız dünyada qalacaq olan söz yadigarlarını bəlkə ona görə tükənməz bir istəklə vərəqlərə "yükləyirlər". Vərəqlərin söz yükü nəsillərə mənəvi miras qalır. Məmməd Arazın  da bizə qoyduğu o mirasdan zərrələri tez-tez yada salırıq. Çünki buna ehtiyacımız olur. Şair demişkən:

**Tale-divar saatı,**
**Hər günü, hər anı qızılmış.**
**Ürək bu saatdan bir daş kimi asılmış.**
**Nə vaxtsa,**
**Bir nöqtədə donub qalacaq bu daş.**
**Donacaq heyrətindən,**
**Ömür bu qədər qısa, bu qədər azdır, nədən?**
**İnana bilmirəm ölüm haqq ola,**
**Torpaq rəssam uda, bəstəkar uda.**
**Ana dəfn oluna, gözəl qocala,**
**Bəlkə bir səhnədir, əsərdir bu da.**

Yəqin ki, bu misraların müəllifini oxucularımıza təqdim etməyə ehtiyac yoxdur. Çünki söz sənətinin çətin yoxuşlarını birnəfəsə çıxan, dönümlərdən, döngələrdən qorxmadan ilham atını səyirdib keçən Məmməd Araz poeziyasının özü bir təqdimatdır. O Məmməd Araz ki, bədii sözün qüdrətli ustası, bildiyimiz sözləri, bəzən də gözdən saldığımız sözləri heyrətedici ustalıqla qələmə alıb, "kərpici qızıl urvatına mindirən" şairdir. Bəlkə də elə əsl şairlik də budur. Hələ sağlığında ulular cərgəsində yer tutan Məmməd Arazın lirik şeirləri, bu şeirlərin atalar sözü qədər tutarlı deyimlərlə cilalanmış bənzərsiz misraları geniş oxucu kütləsi arasında dillər əzbəri olmuşdur. Hər oxucu dünyasında Məmməd Araz şeirinin ayrıca bir yozumu var, desək, bəlkə də yanılmarıq. Amma onun poetik sözü hər dəyərləndirmədən, tərifdən ucadadır.

**Uyuyur bir evdə ilham, xəyanət,**
**Şair ayrı deyil, öz millətindən.**
**Şöhrətin yanında dustaq, xəyanət,**
**Necə də ərimir xəcalətindən.**

Məncə şairlər insanlığın, alimlərsə bu dünyanın neçə sirrini açıb. Xalqımız bu dünyaya müdrik övladlarının gözüylə baxdı. Ağlayıb, güləndə də, müdrik övladlarının gözüylə ağlayıb, gülüb. Elə bu xalqın böyüklüyü də dünyaya bəxş etdiyi ölməz şəxsiyyətləri ilə ölçülür. Ancaq dünya bizi əzəl gündən şairləri ilə tanımağa adət edib.



**Zirvədəki əl çatmayan qala mən,**
**Ətəkdəki sinə, cığır, tala mən.**
**Xudafərin harayından qalan mən,**
**Bu da belə bir ömürdü yaşadım.**

Şeirə, sənətə bağlanan Məmməd Araz bir ömrü sözlə bərabər yaşadı. Vətəni, xalqı üçün yaşadı, ömrünü şam kimi əridərək vətənin daşı olmağı belə özünə fəxr saydı və bir də söylədi ki,

**Vətən mənə oğul desə, nə dərdim?!**
**Mamır olub, qayasında bitərdim.**

Vətəndaş şair dünyanın da dərdini ürəyində gəzdirdiyini sözün gücüylə ifadə edir. "İti bazarında atından baha", "Umdum nə verdi ki, küsdüm nə verə?" deyərək bu dünyadan gileylənir, "bəd xəbərlər qoymur məni şeir yazmağa" deyir. Beləcə, dünyanın dərdini içindən, ürəyindən, könlündən, gözündən keçirən Məmməd Araz da təbiətin pozulmayan qanununa uyğun vaxtsız-vədəsiz bu vəfasız dünyanın gedər-gəlməz yoluna yolçu oldu   2004-cü il dekabrın 2-də bir el şairi, Vətən oğlu əbədiyyətə qovuşdu.

**Bir şair demişkən, yel əsdi yaman,**
**Başladı bir nəslin yarpaq tökümü.**
**Qopdu bir ömür də, öz budağından,**
**Qopdu saralmamış bir yarpaq kimi.**

**Sinəsi od tutsun soyuq məzarın,**
**Sənət çiçəyimiz nə vaxtsız solur.**
**Görünür ürəklə yaşayanların,**
**Elə ölümü də ürəkdən olur.**

Böyük sənət yanğısının alovu uzaqlardan görünür. Uluların şöhrət yolunu hər zaman belə görmüşük. Məmməd Araz da həmin ululuq mərtəbəsinə qalxmışdı. Onun nuru çox uzaqlara yayıldı. Qalxdığı poetik zirvədən bu gün də oxucularını "səsləyən" Məmməd Araz illər ötsə də, qərinələr keçsə də, daim Azərbaycan xalqının qəlbində yaşayacaq. Ustadın özünün dediyi kimi:

**Bütün keçilməzliyi, Vətən adıyla keçdin...**
**Haqqın var, Məmməd Araz,**
**Haqqın var yaşamağa!**

Bizsə deyirik: Sənin dilinlə, sənin ürəyinlə sevən, bu sevgidən doğan, burulğanlarda fəryad qoparan nə qədər insanın dərdinə dilmanclıq eləyirsən sirli-soraqlı poeziyanla. Belə bir poeziyanın yaradıcısı ölməzdir, unudulmazdır  Ruhun şad olsun xalqın böyük şair oğlu!

**Yenə bir qapını döyürdü bir səs,**
**-Ey kimsən?**
**-Şöhrətəm !**
**-Buyurun, Sizə kim**
**-Məmməd İbrahim**
**-Gecikmisən, o burda yaşamır!**
**-Harda yaşayır ?**
**-Yaxında,**
**Üstündə bir qız ağlayan**
**Qəbir var, ordadır Məmməd Araz...**

Zər qədrini zərgər bilər, deyib atalarımız. Heç bir təltifə, təqdimata ehtiyacı olmayan Məmməd Arazı insanlığa insanlığı ilə nümunə olan böyük Heydər Əliyev fəxri adla təltif etdi. Onun səhhətinin yaxşılaşması üçün xarici ölkədə müalicəsinə qayğı göstərdi. Dünyaya gec-gec gələn belə bir insanın bu xalqa mənsub olduğunu hayqırdı. Ona həsrətində olduğu hər bir şəraiti yaratdı. Təki, Məmməd Araz yaşasın, yaratsın. Sevindirici haldır ki, böyük Məmməd Arazın gənc nəslə tanıdılması üçün Muxtar Respublika Ali Məclisinin Sədri tərəfindən də məlum Sərəncamın imzalanması və bu gün Nursu kəndində onun Ev Muzeyinin yaradılması üçün müasir binanın tikintisinin aparılması bu vətən oğlunun keçdiyi yaradıcılıq yolunun, ömrünün təhlil olunması, həmçinin ona olan ehtiramın təntənəsi kimi qiymətləndirilir. Bu da Heydər Əliyev yolunun muxtar respublikamızda necə davam etdirilməsinin göstəricisidir. Bir ziyalı, bir vətəndaş, bir insan kimi bu, məni və mənim kimi hər bir şahbuzlunu çox sevindirir. Çünki Məmməd Araz fəlsəfəsi, poeziyası insanlıq məktəbidir. Və o nəsillərə nümunədir.

**Şəhla,**
**Şahbuz rayon "Oğuz səsi" qəzetinin redaktoru**

Ədalət.-2016.-13 oktyabr.-S.3.